

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 147 (24.034)

6 avqust 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Layçakın etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında əlaqələrin uğurlu inkişafını qeyd edərək əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin zəruriliyini vurğulayıb. İqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı bu sahədə əməkdaşlığın və qarşılıqlı ticarətin dərinləşdirilməsi, həmçinin Azərbaycan və Slovakiya şirkətlərinin ölkələrimizdə fəaliyyətinin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirib. Eyni zamanda Slovakiya şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində iştirakda marağı da qeyd olunub. Prezident İlham Əliyev Slovakiyanın Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığına verdiyi dəstəyi də vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Şuller-Qötzburqun da etimadnaməsini qəbul edib.

## Muxtar respublikada əhalinin məşğulluğu təmin edilir

*Muxtar respublikada əhalinin məşğulluğunun təmin olunması və həyat səviyyəsinin yüksəldilməsi iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən sosial-iqtisadi islahatlar, sahibkarlığa göstərilən dövlət dəstəyi, yeni istehsal və xidmət sahələrinin yaradılması iş yerlərinin sayının artması və işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına geniş imkanlar açıb.*

Muxtar respublikada 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015, 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramlarının, həmçinin qəbul edilmiş digər Dövlət proqramlarının uğurlu icrası əhalinin məşğulluq imkanlarını artırıb və bu sahənin inkişafını daha da sürətləndirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qeyd etdiyi kimi: ***“Bütün bu görülən işlərin mərkəzində bir məqsəd dayanır: əhalinin rifahı halının***





***yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, məşğulluq səviyyəsinin yüksəldilməsidir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” bu sahədə həyata keçirilən tədbirlərin davamlılığını təmin edib.

Bu istiqamətdə görülən işlərin nəticəsi olaraq təkcə 2018-ci ildən 1 iyul 2022-ci il tarixədək muxtar respublikada 7 min 603 yeni iş yeri açılıb. Açılmış iş yerlərinin 54 faizini daimi iş yerləri təşkil edib. Ümumi açılmış iş yerlərinin 44,4 faizi Naxçıvan şəhərinin, 15,2 faizi Şərur, 12,6 faizi Babək, 7,6 faizi Ordubad, 9,3 faizi Culfa, 4,4 faizi Kəngərli, 4,1 faizi Şahbuz, 2,4 faizi Sədərək rayonlarının payına düşüb.

2022-ci ilin ilk yarım ilində muxtar respublikada sahibkarlara 24 milyon 344 min 900 manat kredit verilib. Verilmiş kreditin 11 milyon 14 min 500 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 13 milyon 330 min 400 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. Bu dövrdə 6 hüquqi və 1414 fiziki şəxs qeydiyyata alınıb.

2022-ci ilin yanvar-iyun aylarında muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 68 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 58 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilib. Bununla yanaşı, cari ilin ilk altı ayında həyata keçirilən sosial layihələr çərçivəsində, ümumilikdə, 227 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğu təmin edilib.

Ümumi inkişafın təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər demoqrafik proseslərə də müsbət təsir göstərmiş, muxtar respublikada əhalinin sayı 2018-ci ilin sonu ilə müqayisədə 1,8 faiz artaraq 1 iyul 2022-ci il tarixə 464,1 min nəfər olmuşdur. Ümumi əhalinin 254,9 min nəfərini məşğul əhali təşkil etmişdir ki, bu da 2018-ci ilin sonu ilə müqayisədə 7,4 faiz çoxdur.

Sahibkarlığın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişiklik yaradıb. Belə ki, 2018-ci ildə muxtar respublikada dövlət sektorunda çalışanların sayı iqtisadiyyatda çalışanların ümumi sayının 17,1 faizini təşkil etmişdirsə, 2022-ci ilin yanvar-iyun aylarında bu göstərici 14,3 faiz olmuşdur.

Cari ilin yanvar-iyun aylarında muxtar respublikada muzdla işləyənlərin sayı 98,6 min nəfər təşkil etmişdir ki, bunun da 36,5 min nəfəri dövlət sektorunda, 62,1 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 6,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,4 faizi sənaye, 12,2 faizi tikinti, 20 faizi topdan və pərakəndə ticarət, 5,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,1 faizi yaşayışın təşkili və ictimai iaşə, 1,2 faizi informasiya və rabitə, 0,4 faizi maliyyə və sığorta fəaliyyəti, 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,2 faizi peşə, elmi və texniki fəaliyyət, 1,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,5 faizi dövlət idarəetməsi və icbari sosial təminat, 14,5 faizi təhsil, 5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,1 faizi istirahət, əyləncə və incəsənət, 2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmış, 2022-ci ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 593,4 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 39,2 faiz çoxdur. Bir işçiyə hesablanmış ən yüksək ortaaylıq əməkhaqqı göstəricisi dövlət idarəetməsi və icbari sosial təminat, maliyyə və sığorta fəaliyyəti, topdan və pərakəndə ticarət sahələrində çalışan işçilərdə qeydə alınmışdır.

Səmərəli məşğulluğun təmin edilməsi və özünüməşğulluğun təmin edilməsi istiqamətində görülən işlərin davamlılığı əhalinin məşğulluq səviyyəsini daha da yüksəltmiş, muxtar respublikanın davamlı inkişafına yeni imkanlar yaratmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə yüksəkixtisaslı kadr hazırlığının diqqətdə saxlanılmasına dair verilmiş tapşırığın icrası ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir.*

## Rabitəçi mühəndislər üçün növbəti seminar təşkil olunub



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının aparıcı texnologiya şirkətlərindən olan “Karel” şirkəti arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində nazirliyin aparatının və tabeli qurumlarının mühəndislərinin biliklərinin artırılması məqsədilə seminar keçirilib.

Tədbirdə nazirliyin aparatının Telekommunikasiya və radiotezliklərin qeydiyyatı şöbəsinin müdiri Ruhən Əsgərov qeyd edib ki, muxtar respublikada yeni nəsil telekommunikasiya şəbəkələrinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, əhalinin müasir rabitə və internet xidmətləri ilə əhatə olunması diqqət mərkəzində saxlanılır.

Həmin şöbənin baş məsləhətçisi Azər Seyidov seminarın əhəmiyyətinə toxunaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən ixtisaslı kadrların hazırlanması hər zaman prioritet məsələ olub. Bu səbəbdən işçilərin müvafiq peşə istiqaməti üzrə nəzəri və praktik biliklərinin artırılması, o cümlədən ixtisaslı kadr kimi formalaşmaları istiqamətində müvafiq təlim və seminarlar keçirilir.

Türkiyə Respublikasının rabitə elektronikası sahəsində nüfuzlu şirkətlərdən olan “Karel” şirkətinin İqdır bölgə müdiri Hasan Akot, şirkətin təcrübəli mühəndisləri Sinan Özmən və Muhammed Kalkan slaydlar vasitəsilə Karel avtomat telefon stansiyalarının iş prinsipi, Karel bulud IP çağrı mərkəzi, Karel bulud İoT həlləri və qurğuları, Karel görüntülü təhlükəsizlik sistemləri və dördüncü sənaye tətbiqləri mövzularında məlumatlar veriblər.

Tədbirin sonunda suallar cavablandırılıb, aidiyyəti mütəxəssislərə cihazların istifadə qaydaları barədə praktik təlim keçirilib.

Həmçinin nazirliyin aparatının aid mütəxəssislərinin iştirakı ilə Kəngərli rayonunun telekommunikasiya şəbəkəsinin istismarında olan “Karel” şirkətinin istehsalı olan elektron avtomat telefon stansiyalarına baxış olub, texniki xüsusiyyətləri haqqında əlavə məlumatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi başa çatdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən əvvəlki aylarda olduğu kimi, avqust ayında da bütün növ əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb. Qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi dəyərində maddi yardımın ödənilməsi də təmin edilib. Ümumilikdə, avqust ayı üçün pensiya ödənişinə 15 milyon 407 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin verilməsinə 258 min 625 manat vəsait yönəldilib.

Qeyd edək ki, muxtar respublika iqtisadiyyatının inkişafı məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda ciddi artımın əldə olunmasına şərait yaradır. Belə ki, cari ilin 7 ayı ərzində fondun məcburi dövlət sosial sığorta haqları üzrə gəlirləri 77 milyon 268 min 700 manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 milyon 260 min 300 manat və ya 17,1 faiz çoxdur. Ümumiyyətlə, cari ilin ilk 7 ayı ərzində pensiya və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 65,7 faizi muxtar respublika daxilində yığılan məcburi dövlət sosial sığortahaqqı hesabına maliyyələşdirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Elmə sədaqətli xidmət nümunəsi

*Hər bir millətin mədəni inkişaf səviyyəsi onun elmi və mədəni potensialından asılıdır. Dünya elminə dahilər bəxş etmiş Azərbaycan elmi sağlam təməllər üzərində formalaşmış, bu proses davamlı olaraq gələcək nəsillərə ötürülmüşdür. Əsasını yazı mədəniyyətindən götürən Azərbaycan elmi riyaziyyat, həndəsə, tibb, təbiət elmləri, astronomiya, hüquq, fəlsəfə, coğrafiya, dilçilik, ədəbiyyat və başqa elm sahələrini yeni-yeni töhfələrlə zənginləşdirmişdir. Bu təmayüllərə sadiq qalan Azərbaycan elmi 1945-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının simasında inkişafını davam etdirmiş, bu elm məbədi xalqın intellektual potensialının səmərəli təşkilində, dövrün tələblərindən irəli gələn strateji istiqamətlərin müəyyənləşdirilməsində özünəməxsus rol oynamışdır.*




AMEA Naxçıvan Bölməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli “Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında” Sərəncamı ilə yaradılmışdır. Ulu öndər bu barədə demişdir: ***“Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq mən bu Sərəncamı vermişəm”.*** Bölmə 20 illik fəaliyyəti dövründə Azərbaycan elmini aparılan elmi araşdırmalarla, əldə olunan yeni elmi nəticələrlə zənginləşdirməyə çalışmışdır. Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəliliyinin artırılması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə təsis olunan bölmə AMEA-nın Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Elmi-Tədqiqat Bazası, Şamaxı Astrofizika Rəsədxanasının Batabat və Ağdərə stansiyaları əsasında yaradılıb.





AMEA Naxçıvan Bölməsi 2003-cü ilin yanvar ayında 139 nəfərlik işçi heyəti ilə fəaliyyətə başlayıb. Bu gün AMEA Naxçıvan Bölməsi 247 nəfərin çalışdığı, seçilən elm müəssisəsidir. Bölmədə 2 akademik, 4 AMEA-nın müxbir üzvü, 5 elmlər doktoru və 51 fəlsəfə doktoru olmaqla, 92 nəfər elmi işçi fəaliyyət göstərir, əməkdaşlardan 47 nəfərin elmi adı vardır. Ümumilikdə, bölmənin elmi potensialının 68,5 faizi elmi dərəcəli tədqiqatçılardan ibarətdir.

Fəaliyyətinin başlanğıcında kadr potensialının artırılmasını, yüksəkixtisaslı kadrların hazırlanmasını əsas inkişaf meyarlarından biri kimi müəyyənləşdirən Naxçıvan Bölməsi elmi potensiallı gənclərin AMEA-nın müxtəlif elmi-tədqiqat müəssisələrinin doktoranturalarında təhsil almalarını təmin etmiş, artan elmi potensial sayəsində doktorantura və dissertantura yolu ilə kadr hazırlamaq səlahiyyətinə sahib olmuşdur. Təkmil maddi-texniki baza və elm adamlarına göstərilən hərtərəfli qayğı gənc tədqiqatçılar üçün stimul yaratmış, aparılan araşdırmaların səmərəliliyini artırmışdır. Hazırda bölmədə 39 doktorant və dissertant elmi-tədqiqatını davam etdirir.

Məhsuldar fəaliyyəti ilə diqqətçəkən Naxçıvan Bölməsində 2006-cı ildən başlayaraq fəaliyyət göstərən Dissertasiya şuralarında bu günədək 15 nəfər elmlər doktoru, 95 nəfər isə fəlsəfə doktoru dissertasiyasını uğurla müdafiə edib. Hazırda AMEA Naxçıvan Bölməsi Vətən tarixi, Arxeologiya, Müəssisələrin təşkili və idarə olunması, Fiziki və qeyri-üzvi kimya ixtisasları üzrə tədqiqatçıların elm yolunda inamlı addımlarının arzuolunan dəstəkçisidir.

20 illik fəaliyyəti dövründə əməkdaşların məhsuldar fəaliyyəti, elmi axtarışlarının nəticələri, ümumilikdə, 10849 elmi əsərdə əksini tapıb. Qeyd olunan əsər sayı 500 kitab və monoqrafiyanı, 38 dərs və metodik vəsaiti, 10069 elmi məqaləni, 234 tezisi və 8 kitabçanı əhatə edir. Bundan əlavə, əməkdaşlar bu günədək 55 buklet, 26 atlas və xəritə hazırlamış, 5 tövsiyə irəli sürmüşlər. İki seriyada nəşr olunan “Elmi əsərlər” jurnalının bu günədək 70, “Axtarışlar” jurnalının isə 43 nömrəsi çapdan çıxıb. Habelə ikicildlik “Naxçıvan Ensiklopediyası”, üçcildlik “Naxçıvan tarixi”, üçcildlik “Naxçıvan folkloru antologiyası”, “Naxçıvan Abidələri Ensiklopediyası” (iki dildə), “Naxçıvan tarixi atlası”, “Naxçıvan teatrının salnaməsi”, “Dədə Qorqud yurdu – Naxçıvan” tarixi-coğrafi və etnoqrafik atlası”, “Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: hazırkı vəziyyəti və perspektivləri”, ikicildlik “Naxçıvan Muxtar Respublikasının “Qırmızı kitabı”, “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası”, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri”, ikicildlik “Naxçıvan coğrafiyası” və başqa fundamental əsərlər nəşr edilib.

49-u kitab və monoqrafiya olmaqla, 2309 əsər xaricdə çap olunub. Xarici dillərdə nəşr olunmuş həmin kitab və monoqrafiyalar Naxçıvanla bağlı tədqiqatların, fakt və həqiqətlərin dünyaya çatdırılması, bütövlükdə, bölgənin hərtərəfli təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Bu əsərlər alimlərimizin uğuru olmaqla yanaşı, həm də Naxçıvan diyarının beynəlxalq arenada layiqli şəkildə tanıdılması məqsədi daşımışdır. Ötən dövr ərzində dərc olunan məqalələrin keyfiyyət göstəriciləri diqqətdə saxlanılmışdır. 358 məqalənin “Web of Science”, “Scopus” və digər elmi bazalara daxil olan impakt faktorlu jurnallarda dərci, əsərlərə edilən 1690 istinad bu fəaliyyətin gözlənilən nəticəsidir.

Bölmənin fəaliyyəti dövründə alimlərimiz 23 ixtira, 9 seleksiya nailiyyəti, 6 sənaye nümunəsindən ibarət 38 patent almış, 188 mühüm elmi nəticə əldə olunmuşdur. Bölmə əməkdaşları, ümumilikdə, 23 qrant layihə üzrə qalib gəlib. Həmin layihələrdən 4-ü beynəlxalq səviyyəli olmuş, tədqiqatçıların bu layihələrdə aktiv iştirakı təmin edilmişdir.

Ulu öndər Heydər Əliyevin Naxçıvan bölgəsinin Azərbaycan tarixində, dövlətçiliyində rolunun araşdırılması ilə bağlı fikirlərini fəaliyyətinin əsas istiqaməti kimi müəyyənləşdirən Naxçıvan Bölməsi 2006-cı ildən başlayaraq beynəlxalq, 2012-ci ildən isə respublika səviyyəli arxeoloji ekspedisiyalar aparmış, dünyanın bir çox ölkəsindən olan arxeoloq alimlərin iştirakı ilə Ovçular təpəsi, Oğlanqala, Qızqala, Duzdağ, I Kültəpə, Sədərək Kültəpəsi və başqa abidələrdə yerinə yetirilən elmi araşdırmalar zamanı bölgənin qədim tarixi ilə bağlı önəmli faktlar aşkara çıxarılmışdır. Naxçıvanda ilkin şəhər mədəniyyətinin tarixi, Eneolit, Boyalı qablar mədəniyyəti, Dalmatəpə mədəniyyəti, qədim Sədərək şəhərinin yeri, Duzdağda duz emalının tarixi və əldə olunan digər mühüm bilgilər tarixi keçmişimizə işıq tutmaqla yanaşı, eyni zamanda aparılan kömür analizləri əsasında bir sıra faktların tarixin daha erkən mərhələlərinə aidliyi sübuta yetirilmişdir. Əldə olunan elmi nəticələr beynəlxalq elmi ictimaiyyətə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncamına uyğun olaraq Naxçıvan Bölməsi tərəfindən muxtar respublika ərazisində 1200-dən çox tarix və mədəniyyət abidəsi müəyyən edilərək pasportlaşdırılmış, müxtəlif təyinatlı bir çox tarixi abidə tədqiq olunmuşdur. Gəmiqaya, Əlincəqala, Gülüstan türbəsi, Qarabağlar Türbə Kompleksi əsaslı elmi-tədqiqata cəlb edilmiş, araşdırmaların nəticələri ilə bağlı kitablar nəşr olunmuşdur.

Tarix-memarlıq abidələri ilə yanaşı, milli dəyərlər sisteminin qorunması və inkişafı məqsədilə də tədqiqatlar davam etdirilmiş, aparılan tədqiqatların nəticəsi müxtəlif çap nümunələrində əksini tapmışdır. 2018-ci ildə “Köçəri”, “Tənzərə” yallıları YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə “Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilmişdir. “Tədbirlər Planı”ndan irəli gələn vəzifələrin icrası məqsədilə Naxçıvan Bölməsində Şərur yallılarına dair sistemli araşdırma aparılmış, tədqiqatların ilkin nəticəsi olaraq “Azərbaycanın ən qədim yallılarından biri – Köçəri” toplusu çap olunmuşdur.

Naxçıvan torpağının yetirməsi, görkəmli alim Nemətulla Naxçıvaninin irsi araşdırılaraq əsərlərindən bəziləri Azərbaycan dilinə tərcümə edilmiş, “Naxçıvanın bayram və mərasimləri” monoqrafiyası nəşr olunmuşdur.

Ötən il 21 sentyabr tarixdə Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədəki tarixi çıxışında Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***“Ümummilli liderimiz Heydər Əliyev elmin hər bir ölkə üçün əhəmiyyətinə də diqqəti çəkərək deyirdi ki, “Hansı iqtisadiyyat olur-olsun, elm inkişaf etməlidir”. Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində elmi nailiyyətlərin tətbiqi qarşıya mühüm vəzifələr qoyur”.***

Muxtar respublika rəhbəri Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinə fəaliyyətində elmi tədqiqatların və araşdırmaların səmərəliliyini artırma, elm, sosial-iqtisadi inkişafa öz töhfəsini verməsi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə elmin inkişaf strategiyasının bir-biri ilə əlaqələndirilməsi, aktual elmi istiqamətlər müəyyənləşdirilməsi, elmin innovasiya fəaliyyətinin dəstəklənməsi, elmi tədqiqatların tətbiqi mexanizmlərinin hazırlanması, “Elm Festivalı”nın keçirilməsi ilə bağlı və digər mühüm tapşırıqlar vermişdir. Bölmə sonrakı fəaliyyətini məhz elmin inkişafına xidmət edəcək bu mühüm vəzifələrin icrası istiqamətində qurmuşdur. Belə ki, muxtar respublika rayonlarının tarixi, ikicildlik “Naxçıvan etnoqrafiyası”, “Naxçıvanın xalq deyimləri” kitabları nəşrə hazırlanmışdır. Digər tapşırıqların icrası isə davam edir.

AMEA Naxçıvan Bölməsində elmin istehsalatda tətbiqi diqqətdə saxlanılmış, bölmə əməkdaşları tərəfindən Qabıllı və Duzdağ gilindən yuyucu vasitə, Biləv alüminium süxurundan kalium alüminium zəyi, efir yağları, gülab, sirkə, boya, propolis, çaytikanı yağı, “Şorsu” palçığı və quru qalığı, “Darıdağ” termal suyunun quru qalığı kimi məhsullar hazırlanmışdır. Əlavə olaraq 16 adda bitki qarışığından dərman paketlərinin, sarıçiçək, zəfəran, müxtəlif şirə, mürəbbə, cem, kompot və meyvə qurularının istehsal-satışı təmin edilmişdir.




Bölmə 20 illik fəaliyyəti dövründə çoxsaylı beynəlxalq, respublika və muxtar respublika səviyyəli elmi konfranslara ev sahibliyi etmişdir. Dünya səviyyəli tədqiqatçıların konfranslarda iştirakı ilə bərabər, bölmə alimlərinin müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda etdikləri məruzələr bölgə ilə bağlı elmi həqiqətləri ictimaiyyətin diqqətinə çatdırmaqla yanaşı, Naxçıvanın beynəlxalq arenada təbliğinə xidmət etmişdir.

AMEA Naxçıvan Bölməsi fəaliyyəti dövründə 8 ölkənin 30-a yaxın elm və təhsil mərkəzi ilə səmərəli əməkdaşlıq etmiş və beynəlxalq əlaqələrin genişləndirilməsi diqqətdə saxlanmışdır. Cari ilin may ayında Türk Tarix Qurumu ilə birgə əməkdaşlığa dair müqavilənin imzalanması bu fəaliyyətin uğurlu davamıdır.

Fəaliyyətində gənc nəsildə elmə marağın yaradılması, onlarda elmi-tədqiqat aparma bacarıqlarının formalaşdırılmasını bir istiqamət kimi müəyyənləşdirən AMEA Naxçıvan Bölməsi elmlə təhsilin inteqrasiyasına yüksək həssaslıqla yanaşır. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin 10 ixtisas üzrə tələbələrinin bölmənin hamiliyinə verilməsi, elmi dərəcəli əməkdaşların muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərslər tədris etməsi, tələbələrlə, məktəblilərlə keçirilən müntəzəm maarifləndirici görüşlər bu fəaliyyətin bir hissəsidir.

AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin birgə həyata keçirdiyi “Sabahın tədqiqatçıları” layihəsi çərçivəsində 3 tədris ili ərzində məktəblilər elmi rəhbərlərinin düzgün istiqamətləndirilməsi ilə müxtəlifmövzulu tədqiqatları uğurla başa çatdırmış, beynəlxalq bilik yarışlarında diplom və medallar qazanaraq Naxçıvanı layiqincə təmsil etmişlər.

Elmin inkişafını şərtləndirən mühüm amillərdən biri xalqın mədəni inkişaf səviyyəsidirsə, digər mühüm amil də elmə göstərilən qayğıdır. AMEA Naxçıvan Bölməsinin səmərəli elmi fəaliyyəti ölkə rəhbərliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən daim yüksək qiymətləndirilmiş “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvan Azərbaycanın dövlətçilik tarixində” monoqrafiyası Naxçıvan Muxtar Respublika mükafatına, “Tarixi mənbələrdə Nuh Peyğəmbər”, “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” kitabları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatına layiq görülmüşdür. Bəzi əməkdaşlar Prezident mükafatına, fəxri adlara, medallara layiq görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və AMEA-nın Fəxri fərmanları, “Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə” nişanı ilə təltif edilmişlər.

*Sadalanan bütün faktları nəzərə alaraq əminliklə deyə bilərik ki, ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında elmin inkişafı, elmi yeniliklərin təcrübəyə tətbiqi məsələsi daim diqqət mərkəzindədir. Elm sahəsində aparılan islahatlar bu fəaliyyət sahəsinin inkişafına xidmət edir. Elmimizə, elm adamlarına göstərilən diqqət və həssas münasibət hər bir elm nümayəndəsini şövqlə çalışmağa sövq edir.*

**Səkinə CÜMŞÜDOVA**
***AMEA Naxçıvan Bölməsi aparatının***
***Beynəlxalq əlaqələr və informasiya şöbəsinin əməkdaşı***

*Dini-mənəvi dəyərlərimiz*

# Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır

## Muxtar respublikamız bu sahədə də nümunədir

*Böyük alman fiziki Albert Eynşteyn deyirdi ki, dinsiz elm kor, elmsiz din də topaldır. Bəli, insana həyatda yaşamaq üçün yemək, hava, su qədər vacib olan bu iki məfhum – elm və din vəhdət halında inkişaf edərsə, sağlam mənəviyyatın formalaşmasına yol aça, bəşər övladını düzgün əqidə sahibi edərək onu kamillik zirvəsinə, mərifət, fəzilət məqamına ucalda bilər. Əgər söhbət dini elmi cəhətdən öyrənməkdən gedirsə, bu zaman ən ali məqsəd müqəddəs kitabımız "Qurani-Kərim"in "Oxu" əmrinə əməl edərək araşdırma aparıb müfəssəl ədəbiyyatlara istinadən məntiqi nəticə çıxarıb doğru yola varmaqdır, çünki əbəs yerə "elminə əməl etməyən alim əlində bir işıqlı çıraq saxlayan kora bənzəyər", – demirlər. Bu baxımdan günümüzdə dünyanın müxtəlif yerlərində məzhəb ayrı-seçkiliyi salaraq din pərdəsi adı altında naqis məqsədlər naminə insanları cahillik girdabına, xurafat məngənəsinə yuvarlayan halların hökm sürdüyü bir dövrdə muxtar respublikamızda bunun tam əksinə – dini-mənəvi dəyərlərin yüksək səviyyədə yaşadılması,* ***"Milli-mənəvi dəyərlərimiz təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın mühüm atributudur"****, – deyən ümummilli liderimiz Heydər Əliyevin misilsiz ümumbəşəri ideyalarına sadiqliyin təntənəsidir.*

Məhz cari il mart ayının 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbovun fəlsəfi kəlamlarla dolu dərin məzmunlu çıxışında da Naxçıvanda dini-mənəvi dəyərlərimizin qorunub-yaşadılması sahəsində böyük inkişaf yolu keçildiyi bir daha vurğulandı və qarşıdakı dövrdə bu istiqamətdə görüləcək işlər müəyyənləşdirildi, aidiyyəti dövlət orqanlarına konkret tapşırıqlar verildi...

Müşavirədə Ali Məclis Sədrinin dediyi ***"...Naxçıvanda elmə və təhsilə yüksək dəyər verilməsinin başlıca səbəblərindən biri də onun mənəviyyatımızla sıx bağlı olmasıdır. Belə bir yanaşma da var ki, elm dindən ayrıdırsa, uçurum, din elmdən ayrıdırsa, xurafatdır. Buradan o nəticəyə nail oluruq ki, sağlam mənəviyyatın formalaşdırılmasının ikinci yolu – elmlə dinin vəhdəti günün tələbidir..."*** dəyərli fikirlərinin ziyasında muxtar respublikamızda sağlam dini-elmi mühitin formalaşdırılması, hər yaşdan olan insanlara, xüsusilə də gənclərə mənəvi dəyərlərimizin elmi cəhətdən aşılanması yönündə görülən tədbirlərin icra əhəmiyyətinə nəzər salmağa çalışdıq. Müsahibimiz Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin eksperti, "Naxçıvan" Universitetinin İlahiyyat kafedrasının müəllimi ***Sabir Xəlilov*** mövzu ilə bağlı suallarımıza aydınlıq gətirdi. Bildirdi ki, ölkəmiz tarixən milli və dini baxımdan nümunə gücündə olan yüksək mədəni irsə malik tolerant ölkə kimi tanınıb. Xalqımızın tolerant düşüncəli olduğunu həm tarixi mənbələr, həm Azərbaycanda bərabər hüquqlarla yaşayan müxtəlif xalqların nümayəndələri, həm də ölkəmizə gələn xarici qonaqlar da təsdiq edirlər. Bu gün həyatımızın bütün sahələrində bu bərabərlik, həmrəylik prinsiplərini görə, hiss edə bilərik. Təhsildə bu amil xüsusi nəzərə çarpır. Məhz ölkəmizdə əsası ulu öndərimiz tərəfindən qoyulan multikulturalizm və tolerantlıq siyasətinə, bərabər hüquq prinsiplərinə, xalqımızın düşüncə tərzinə, milli-mənəvi dəyərlərinə uyğun olaraq "Naxçıvan" Universitetinin Dinşünaslıq ixtisasında İslam dininin tədrisinə dair ərəb dili, Quran oxu və təcvid, hədis, təfsir, fiqh, kəlam, təsəvvüf kimi fənlərlə yanaşı, digər aparıcı dünya dinlərinin – xristianlıq, yəhudilik, buddizmin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, eləcə də fəlsəfə, sosiologiya, multikulturalizm kimi sosial, humanitar elmlər də tədris olunur. Ali Məclis Sədrinin müvafiq sərəncamlarına əsasən Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinə hamiliyə verilən tələbələrlə mütəmadi şəkildə dini-tərbiyəvi tədbirlər, maarifləndirici görüşlər, universitetdaxili elmi-praktik konfranslar, agentlikdə təcrübə mübadilələri təşkil olunur.



Ümummilli liderimiz Heydər Əliyevin ***"İslam dini həmişə insanları sağlığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. "Qurani-Kərim" insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir..."*** dəyərli fikirlərini xatırladan Sabir müəllim bildirdi ki, tələbələrə İslam elminin öyrədilməsində əsas dərs vəsaiti kimi məhz "Qurani-Kərim"dən istifadə edilir. Bundan başqa, sağlam dini-ideoloji təfəkkürə malik kadr hazırlığı məqsədilə tədris prosesində tarixi mənbələrdən, ayrı-ayrı düşüncələrə, dünyagörüşlərinə xas ədəbiyyatlardan da nümunələr götürülərək təhlil edilir, tarixi hadisələrə bağlı müxtəlif məqamlar ortaya çıxarılaraq bir-birilə qarşılaşdırılır və araşdırılaraq məntiqi nəticəsi düzgün şəkildə çatdırılır. Bu mənada, hazırda "Naxçıvan" Universitetinin elmi kitabxanasında olan 1393 adda 2243 dini ədəbiyyat çox köməyimizə yetişir. Dərslərdə gənclər İslam elmlərinin mənbəyi olan "Qurani-Kərim"i oxuyarkən dilin xətalardan qorunması və ərəb dilindəki hərfləri məxrəclərindən xüsusiyyətləri ilə birlikdə düzgün tələffüz etməyi, təcvid qaydalarını "Qurani-Kərim"in bütün surələrinə tətbiq etməyi, müqəddəs kitabı oxuyarkən meydana çıxan xətaları təsbit edərək aradan qaldırmağı, namaz dualarını, "Qurani-Kərim"in müəyyən surələrini əzbər, təcvid qaydaları əsasında surələri üzündən oxumağı öyrənirlər. Həmçinin tələbələr İslamın yarandığı mühitin sosial, iqtisadi, siyasi və dini strukturunu, Məhəmməd Peyğəmbərin (s.a.v) şəxsiyyəti və fəaliyyətini, İslamın ilk dövrlərində qeyri-müsəlmanlarla münasibətlərinin hüquqi, sosial, iqtisadi və dini aspektlərini, Ərəbistan yarımadasının islamlaşma prosesini, İslam xilafətinin idarəetmə mexanizminin inkişaf tarixini, fəthlərin dini-siyasi səbəb və nəticələrini, İslam sivilizasiyasının ilkin təşəkkül prosesini və digər məqamları dərindən mənimsəyirlər. Bununla da onlar orta əsrlər İslam tarixinin ictimai, iqtisadi və mədəni sahələri haqqında təhlillər və müqayisələr aparmaq, siyasi hadisələrin gedişinə təsir edən ictimai, iqtisadi və digər səbəbləri analiz süzgəcindən keçirmək və İslam tarixinin müxtəlif dövrlərinin inkişaf mərhələlərini araşdırmaq qabiliyyətinə malik olurlar. Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, yeniyetməlik və gənclik dövrü psixoloji baxımdan ən həssas məqamları özündə ehtiva etdiyi üçün həmin yaşda uşaqlara dinin elmi cəhətdən düzgün aşılanması, onlarda zəngin mənəvi keyfiyyətlərin formalaşdırılması olduqca vacib məsələdir. Yəni əgər uşağa erkən yaşdan namaz qılmaq öyrədilirsə, dəstamazdan başlamış ayələrin oxunmasınadək bütün prosesləri onun dərk edə bildiyi tərzdə, şüurlu şəkildə bütün mahiyyətilə izah edilməlidir ki, gələcəkdə hansısa cərəyanlar qarşısına çıxdıqda onlarla mübarizə aparıb qalib gələ bilsin. Təəssüf ki, dövrümüzdə dünyada bəzi lüzumsuz, heç bir əsası olmadan yayılan təriqətlər yeniyetmə və gəncləri daha asanlıqla öz təsirinə salmağa, müxtəlif aldadıcı vədlərlə onlardan çirkin məqsədlər naminə sui-istifadə etməyə müvəffəq olurlar. Məhz bütün bunları nəzərə alıb tədris prosesində tələbələrə milliliyimizə xələl gətirəcək, dəyərlərimizə əks, yad ünsürlərə qarşı dözümlü şəkildə mübarizə aparmağın yollarını əsaslı surətdə izah edir, səmavi dinləri düzgün formada, hədisləri, ayələri doğru təfsirlə, tarixi hadisələri faktlarla öyrətməyə çalışırıq.

Ali Məclis Sədrinin ***"O cəmiyyət sağlamdır ki, orada mənəvi dəyərlərə sahiblik vardır. Müdriklər də deyirdi ki, inkişaf yalnız elmə əsaslandıqda məqsədə tam çatmaq mümkün deyil. Çünki elmdə irəli gedib mənəviyyatda geridə qalan cəmiyyət, son nəticədə, irəli yox, geriyə gedir. Bu gün dünyanın bir tərəfində insanlar dini və milli dözümsüzlükdən, digər tərəfində təriqətlərarası qarşıdurma və terrorizmdən əziyyət çəkirlərsə, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında isə dini həmrəylik və tolerantlıq hökm sürür"*** fikirlərini xatırladan Sabir müəllim bildirdi ki, muxtar respublikamız dünyada, bəlkə də, yeganə diyarlardan biridir ki, burada gündəlik bütün namazlar məscidlərdə vəhdət halında qılınır, dini ayinlər İslama xas humanizm prinsipləri üzrə birgə, ayrı-seçkilik salınmadan düzgün şəkildə icra olunur. Bu baxımdan hazırda davam edən Məhərrəm ayına xas ayinləri də qeyd etmək olar. Belə ki, bu ayda, eləcə də Aşura günündə əzadarlıq məscidlərimiz daxilində heç bir kənar müdaxilə olmadan, qaydalara uyğun saxlanılır. Yaşadığı dövrdə hər cür ayrı-seçkiliyə qarşı çıxan, insanları bərabərliyə, həmrəyliyə səsləyən Məhəmməd Peyğəmbər (s.a.v) buyurub ki, bədən Allahın bizə əmanətidir. Muxtar respublikamızda dövlətimiz tərəfindən görülən işlərin, aparılan maarifləndirmə tədbirlərinin bəhrəsi də belə deməyə əsas verir ki, biz əmanətə ən yaxşı sahib çıxan ümmətik. Bəli, bu gün insanlarımız dinlə bağlı bütün məsələlərə korkoranə deyil, şüurlu şəkildə, həssaslıqla yanaşır, Ramazan, Məhərrəm aylarında həmrəylik nümayiş etdirir, dövlətimizin humanist addımlarına canla-başla qoşulur, dəstəklərini əsirgəmir, ehtiyacı olan insanlara köməklik göstərirlər. Yüksək ali təhsilə malik din xadimlərimiz tərəfindən məscidlərimizdə dini düzgün şəkildə təbliğ edən moizələr oxunur, şəhidlərimizin ruhlarına dualar edilir, ehsanlar verilir. Artıq bir neçə ildir ki, Aşura günündə muxtar respublikamızın bütün bölgələrində könüllü surətdə böyük xeyirxahlıq təşəbbüsü kimi qanvermə aksiyaları keçirilir, insanlar İslamın əsas qayəsinə əməl edərək xəstələrə şəfa vermək, darda olanlara kömək əli uzatmaq kimi pak niyyətlər, savab əməllər sahibi olurlar. Ümumiyyətlə, Məhərrəm ayının 10-cu günü sayılan, Nuh, Yunus, İbrahim və digər peyğəmbərlərin adları ilə də bağlı olan Aşura tarixən müqəddəs gün hesab edilib. Yəni həmin gün Uca Yaradanın bizə bəxş etdiyi həyati-vacib nemətlərə, əmanətlərə daha həssaslıqla yanaşmalı, xeyirxah əməllər, savab işlər görməliyik. Qeyd etdiyim kimi, İslamdan qabaqkı dövrlərdə də mövcud olan həmin ayda döyüşmək, qan tökmək, müharibə etmək böyük günah sayılıb. Elə məhz bu amilə görə Kərbəla hadisəsi müsəlman ümmətinin tarixinə təkcə kədərli deyil, eyni zamanda insanlara qeyrət, qürur bəxş edən bir məqam kimi daxil olub. Həmin mübarizədə, müharibədə Vətən sevgisi, əqidəyə sadiqlik uğrunda səfərbərolma hikməti vardır. Və çox təqdiredici haldır ki, muxtar respublika sakinləri həmin hadisənin əsl mahiyyətini dərindən dərk edib, əzadarlıqlarını layiqli şəkildə saxlayır, Allah qarşısında öz mənəvi, vicdani borclarını böyük şövqlə yerinə yetirirlər...

Cari ilin mart ayının 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri deyib: ***"Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır"***.

*Bəli, ölkəmizin ayrılmaz parçası olan muxtar respublikamızda bu gün mədəni irsimizin, dəyərlərimizin böyük hamisi, dahi şəxsiyyət Heydər Əliyevin müəllifi olduğu ümumbəşəri ideyaların ziyasında güclü dövlətçilik, sülh və əmin-amanlıq şəraitində dini-mənəvi dəyərlər nümunəvi şəkildə qorunub yaşadılır. Heç şübhəsiz, tarixi yaşadanları tarix yaşatdığı kimi, dövlət və xalq qarşısında göstərilən xidmət də hər zaman öz layiqli qiymətini alır və gələcək nəsillərə örnək kimi heç zaman unudulmur, qəlblərdə əbədilik məqamı qazanır...*

**Nail ƏSGƏROV**

# Qəbul imtahanında I ixtisas qrupu üzrə ən yüksək nəticəni göstərərək muxtar respublika birincisi olan şagirdlə görüş keçirilib

*Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Nərmin Vəliyeva qəbul imtahanında I ixtisas qrupu üzrə 400 bal toplayaraq muxtar respublika birincisi olub. Bu münasibətlə Nərmin Vəliyeva ilə təhsil aldığı məktəbdə görüş keçirilib. Görüşdə məktəbin pedaqoji kollektivi ilə yanaşı, Nərmin Vəliyevanın valideynləri də iştirak ediblər.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, Şərur rayonunda 54 ümumtəhsil məktəbindən 51-də müasir tədris şəraiti yaradılıb, hazırda Vərməziyar, Alışar və Həmzəli kəndlərindəki məktəb binalarında tikinti işləri davam etdirilir. Bildirilib ki, rayonun ümumtəhsil məktəblərində yaradılan müasir tədris şəraiti artıq öz nəticələrini verir, rayonda tədrisin səviyyəsi ildən-ilə yüksəlir. Diqqətə çatdırılıb ki, Nərmin Vəliyevanın təhsil aldığı 2 nömrəli tam orta məktəb də 2017-ci ildə istifadəyə verilib. Dördmərtəbəli və 1020 şagird yerlik məktəbdə müasir tədris şəraiti yaradılıb. 5-i elektron lövhəli olmaqla, 50 sinif otağı, 2 müəllimlər otağı, 2 şahmat otağı, tibb otağı, bufet, idman zalı, açıq idman qurğuları və minifutbol meydançası şagirdlərin istifadəsinə verilib, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə yeni avadanlıqlar və əyani tədris vasitələrilə təchiz edilib. Məktəbin zəngin kitabxanasında 20 minə yaxın müxtəlif ədəbiyyat toplanıb. Məktəbin müəllimlərindən 1-i Azərbaycan Respublikasının, 4-ü isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülüb.



Təhsil naziri bildirib ki, məktəbdə yaradılan yüksək tədris şəraiti, tədrisin düzgün qurulması, ciddi nizam-intizam və tələbkarlıq şagirdlərin yüksək nailiyyətlər əldə etməsinə şərait yaradıb. Son 5 ildə məktəbin ali və orta ixtisas məktəblərinə qəbul səviyyəsi 80 faizə yaxın olub. 2021-2022-ci tədris ilində də məktəbin məzunlarından, 11-i 500-700 intervalında bal toplayıb. Onlardan 2-si "Qızıl", 1-i "Gümüş" nişanı, 5-i isə fərqlənmə attestatı alıb.

Qeyd olunub ki, məktəbin məzunu Nərmin Vəliyeva da qəbul imtahanlarında I ixtisas qrupu üzrə 400 bal toplayaraq Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin şagirdləri arasında ən yüksək nəticəni göstərərək muxtar respublika birincisi olub. Bildirilib ki, Nərmin Vəliyeva buraxılış imtahanlarında da ən yüksək nəticə göstərərək ana dili fənnindən 100, riyaziyyat fənnindən 97, xarici dil fənnindən isə 95 olmaqla, 292 bal toplayaraq,ümumilikdə, 692 balla muxtar respublika birincisi olub.

Təhsil naziri Nərmin Vəliyevanı yüksək nəticə göstərməsi münasibətilə təbrik edib, məktəbdə tədrisin yüksək səviyyədə təşkilinə görə kollektivə təşəkkürünü bildirib.

Tədbirdə Şərur Rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov, məktəbin direktoru Sevil Hacıyeva, Əməkdar müəllim Əminə Əsgərova, müəllimlərdən Şəhla Vəliyeva yaradılan müasir tədris şəraiti və onların əməyinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinə minnətdarlıq ediblər.

Nərmin Vəliyeva da ona göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib, bundan sonrakı təhsil həyatında yüksək nailiyyətlər əldə edəcəyinə söz verib.

Qəbul imtahanlarında yüksək nəticə əldə etdiyinə görə Nərmin Vəliyevaya Təhsil Nazirliyinin diplomu və pul mükafatı, tədrisin düzgün təşkili və şagirdlərin yüksək nailiyyətlər əldə etməsinə görə məktəbə Təhsil Nazirliyinin təşəkkürnaməsi təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Oxucu məktubları

## Minnətdarlıq

### Şəhid və qazi ailələrinə hərtərəfli qayğı göstərilir



*Hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlamağı biz qazi ailələrinə göstərilən diqqət və qayğıya cavab olaraq özümə borc bildim. Şəhid və qazi ailələrinə göstərilən hərtərəfli dövlət qayğısının davamlı olması hamımızı sevindirir. Belə qayğının ən bariz nümunəsi isə bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən mənzillə təmin edilməyimiz oldu. Mən qazi ailələri adından Ali Məclisin Sədrinə bizi diqqətdə saxlayıb, hərtərəfli qayğı göstərdiyinə görə minnətdarlığımı bildirirəm. Onu da qeyd etmək istəyirəm ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı tarixi Zəfərimizlə xalqımız sonsuz iftixar hissi keçirir. Övladlarım atalarının bu zəfərdə rolu olması ilə daim qürur duyurlar. Biz qürurluyuq ki, şəhidlərimizin qisası düşməndən alınıb. Şəhid ailələrinin, həmçinin qazilərimizin qayğı və dəstəklə əhatə olunması sahəsində dövlət tərəfindən aparılan işlər bizi gələcəyə daha ümidlə baxmağa ruhlandırır.

**Kəramət CƏFƏROV**
*Şərur rayonunun Həmzəli kənd sakini*

*Salam, hörmətli redaksiya!*

Mən İkinci Qarabağ müharibəsinin qəhrəmanı Elməddin Həsənovun atasıyam. Bütün şəhidlərin valideynləri adından minnətdarlığımı bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Qeyd etmək istərdim ki, ömrümün çoxunu köhnə, yararsız vəziyyətdə olan evdə keçirmişəm. Yaşım da artıq öz sözünü deyir. Yararsız vəziyyətdə olan evdə hər gün təmirə ehtiyac duyulurdu. Qışda evdə qaz sobası yansa da, isinmir, yayda isə istidən yaşamaq mümkün olmurdu. Nə gizlədim, mənim də ürəyimdən yaşımın bu çağında rahat bir mənzildə yaşamaq keçirdi. Günlər ötdü, bir gün mənə xəbər çatdı ki, bizim ailəyə də mənzil veriləcək. Həmin gün sevinc və qürur qarışıq qəribə hisslər keçirdim. Dövlət qayğısını hiss etmək mənim də yaralı qəlbimə su səpir. Mənə və mənim kimi şəhid ailələrinə bu cür qayğı göstərən Ali Məclisin Sədrinə minnətdaram.

**Elşən HƏSƏNOV**
*Şərur rayonunun Həmzəli kənd sakini*

### Hərbçi ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır

*Hörmətli redaksiya!*

Mən Şahbuz rayonunda "N" hərbi hissədə xidmət edən baş leytenant Sahil Cəbrayılovun həyat yoldaşıyam. Bu il Silahlı Qüvvələr Günü bizim üçün daha yaddaqalan oldu. Belə ki, Şahbuz şəhərində mənzillə təmin edildik.



Ölkəmizdə ordu quruculuğu sahəsində mühüm işlər həyata keçirilir. Hərbçilərə və onların ailə üzvlərinə ikiqat qayğı göstərilir. Bu qayğının nəticəsini 44 günlük Vətən müharibəsində gördük. Döyüşə atılan hər bir oğul ailəsindən arxayın, gözü arxada qalmadan yurdumuzu erməni işğalından azad etdi. Çünki bilirdilər ki, ailələri müstəqil Azərbaycan dövlətinə əmanətdir. Bu gün muxtar respublikada şəhid və qazi ailələrinin, hərbçilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün kompleks tədbirlər həyata keçirilir. Bir hərbçi ailəsi olaraq hər zaman dövlətimizin qayğısını öz üzərimizdə hiss etmişik. Mənzillə təmin olunmağımız da bunun əyani sübutudur. Artıq bir neçə ildir ki, Naxçıvanda yaşayırıq. Mənzillə təmin edilənə qədər kirayə yaşadığımız evlərdə məişət şəraiti yarıtmaz vəziyyətdə olduğu üçün çox əziyyət çəkirdik. Lakin indi dövlətimiz tərəfindən verilən xidməti mənzillərdə hərbçilərə məişət şəraiti yaradılıb. Uşaqlarımızın əyləncəsi, sağlam mühitdə böyüməsi də diqqətdə saxlanılıb. Özümüz əslən İsmayıllı rayonundan olsaq da, burada əsla qəriblik hiss etmirik.

Bu məktubu sizə ünvanlamaqda məqsədim sevincimi bölüşmək və həm öz ailəmiz, həm də digər hərbçi ailələri adından bizim üçün bu şəraiti yaradanlara göstərilən hərtərəfli dövlət qayğısına görə dövlətimizə minnətdarlığımı bildirməkdir.

**Əsmər CƏBRAYILOVA**
*hərbçi ailəsi*

### Sənətə, sənət adamlarına diqqət mədəniyyətimizin inkişafına təkan verir

*Hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlamaqda məqsədim uzun illər musiqi sahəsində fəaliyyət göstərən biri kimi muxtar respublikamızda musiqi mədəniyyətinin inkişafı üçün yaradılan şəraitdən qısaca söhbət açmaq, sənət adamlarına verilən yüksək dəyərə görə minnətdarlıq hisslərimi ifadə etməkdir. Təvazökarlıqdan uzaq olmasın, özüm, fəaliyyətim haqqında kiçik xülasə kimi onu deyə bilərəm ki, 1983-1989-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışam, muxtar respublikada kamança musiqi alətində ansambl tərkibində, muğam üçlüyündə, orkestr heyətində keçirilən dövlət tədbirlərinin, demək olar ki, əksəriyyətində iştirak etmişəm. 1990-cı ildən Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrində çalışıram. 2006-2010-cu illərdə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində bədii rəhbəri olduğum "Hicaz" Xalq Çalğı Alətləri Ansamblı "Şur" və "Mahur-hindi" muğamlarını dəstgah halında tamaşaçılara təqdim etdik. Həmin tədbirlərdə iştirak edən Ali Məclis Sədrinin konsert proqramlarını yüksək qiymətləndirməsi mənim və ansambl heyətinin fəaliyyəti üçün böyük stimul oldu.

İfaçılıqla yanaşı, həm də pedaqoq kimi uzun illərdir, fəaliyyət göstərirəm. İlk pedaqoji fəaliyyətə 1982-ci ildə Babək rayon Cəhri Kənd Uşaq Musiqi Məktəbində başlayıb, 1989-cu ildən Naxçıvan Musiqi Texnikumunda çalışmışam. 1996-cı ildən isə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində baş müəlliməm, tələbələrimlə tez-tez konsert tədbirlərində iştirak edirəm. İstər musiqiçi, istərsə də pedaqoq kimi fəaliyyət göstərdiyim ötən dövrdə dövlətimizin diqqət və qayğısını daim üzərimdə hiss etmişəm. Əməyim Ali Məclisin Sədri tərəfindən yüksək qiymətləndirilərək 2006-cı il yanvarın 6-da "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülmüşəm. Artıq yarısını geridə qoyduğumuz 2022-ci ili də yaradıcı fəaliyyətim üçün uğurlu hesab edə bilərəm. Belə ki, bu il Prezident mükafatına layiq görüldüm, təqdimatla bağlı Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublika rəhbəri ilə görüşümüz oldu. Həmin görüş xatirəmdə dərin təəssüratlar buraxdı. Həqiqətən də Ali Məclis Sədrinin hər dəfə mədəniyyət işçiləri ilə görüşməsi, onların əməyinə yüksək qiymət verməsi bizə stimul verir, yeni nailiyyətlərə ruhlandırır. Qazandığım nailiyyətləri muxtar respublikada əlverişli yaradıcı mühitin formalaşdırılmasının nəticəsi kimi dəyərləndirirdim.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, bu gün gənc nəslin intellektual inkişafı, peşə və sənət sahələrinə yiyələnməsi üçün geniş imkanlar yaradılıb. Bu mənada, muxtar respublikamızın şəhər, rayon, qəsəbə və kəndlərində musiqi məktəbləri, Naxçıvan Musiqi Kolleci, Konservatoriya, eləcə də ali təhsil ocaqlarında yüksək musiqi təhsili verən ixtisaslar fəaliyyət göstərir. Gənc musiqiçilər üçün stimullaşdırıcı tədbirlər görülür, müxtəlif konsert proqramlarında onların ifalarına, çıxışlarına geniş yer verilir, qastrol səfərlərində iştirakları təmin edilir, istedadların üzə çıxarılması naminə müsabiqələr keçirilir, mükafatlar təyin olunur. İnkişafa yönələn bütün bu və sadalamadığım digər üstünlükləri yaratmaqda dövlətin məqsədi odur ki, milli-mənəvi dəyərlərimiz, musiqi mədəniyyətimiz yaşasın, klassik irsimiz qorunaraq gələcək nəsillərə ötürülsün. Musiqi sahəsində yaradılan şəraitə, eləcə də sənət adamlarına verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq edirəm.

**Aqib SEYİDOV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti*

### Yeni tədris metodunun tətbiqi dünya təhsilinə inteqrasiyada mühüm amildir

*Hörmətli redaksiya!*

Artıq dünyanın bir çox ölkələrində STEAM təhsil metodu tətbiq edilir və olduqca müsbət nəticələr əldə edilməkdədir. Bu təhsil sisteminin mahiyyəti ondan ibarətdir ki, şagirdlər görüb, toxunub, hiss edərək öyrənirlər və özlərinin elm, texnika, sənət və mühəndislik bacarıqlarını inkişaf etdirərək kreativ düşüncələrlə biliklərini reallıqlara çevirə bilirlər. STEAM dərsləri şagirdlərin qabiliyyətlərinin erkən aşkarlanmasına, düzgün yönləndirilməsinə şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bütün sahələrə olduğu kimi, təhsilə də göstərdiyi qayğının nəticəsidir ki, yeniliklərin daim tətbiq edildiyi, müxtəlif istiqamətlərdə yeni çağırışlara uyğun tədbirlərin həyata keçirildiyi Naxçıvan Muxtar Respublikasında STEAM layihəsinin reallaşdırılması məsələsi də diqqətdə saxlanılır. Ali Məclis Sədrinin tapşırığı ilə 2020-2021-ci tədris ilindən muxtar respublikada STEAM layihəsinin tətbiqinə başlanılıb.

Onu da qeyd edim ki, STEAM təhsil metodunun tədrisi zamanı hazırlanan dərs vəsaitləri şagirdlərin daha əhatəli biliklərə,



bacarıqlara yiyələnməsinə, inteqrasiya imkanlarının genişləndirilməsinə və inkişaf etməsinə səbəb olur. Əminəm ki, yeni tədris ilində də şagirdlər yaradıcı şəkildə iştirak edəcəkləri dərslərdə daha həvəsli olacaqlar. Çünki STEAM şagirdlərə bu vaxta kimi öyrəndiklərinə müxtəlif cür yanaşmaq və yaratmaq şansı verir, özlərini ifadə etməyin fərqli bir cəhətini göstərir. Eyni zamanda onlar bir neçə fəndən əldə etdikləri bilikləri tətbiqə çevirə biləcəklər. Ümumiyyətlə, müəllim olaraq çalışırıq ki, şagirdlərimiz daha çox bilik əldə etsinlər, mövzunu daha yüksək səviyyədə mənimsəsinlər.

Muxtar respublikada STEAM təhsil metodunun yüksək səviyyədə tədrisi üçün müəllim hazırlığı diqqətdə olan əsas hədəflərdən biridir. Belə ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlər STEAM təlimlərinə cəlb edilib. Təlimlər zamanı STEAM metodologiyaları, Robotexnika, 3D CAD Modelləşdirmə və Çap, Proqramlaşdırma, mikrobit və arduino texnologiyaları, mühəndislik modulları müəllimlərə öyrədilib. Təlimi uğurla başa vuran müəllimlər sertifikatla təmin olunub və onlar ümumtəhsil məktəblərində STEAM kabinələrinin imkanlarından istifadə edərək STEAM dərslərini tədris edirlər. Müəllimlərin biliklərinin təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən muxtar respublikaya beynəlxalq təlimçilər dəvət olunub ki, təlimlərdə müəllimlər STEAM sahəsində əlavə biliklər əldə ediblər.

Bununla yanaşı, Təhsil Nazirliyi tərəfindən STEAM üzrə keyfiyyətli tədrisi təmin etmək üçün vahid mərkəzdən STEAM təhsilini əhatə edən mövzulara uyğun interaktiv dərslər də təşkil olunub. Şagirdlərin STEAM sahəsində biliklərini nümayiş etdirmələri üçün müxtəlif kateqoriyalara uyğun müsabiqələr keçirilib. 2021-2022-ci tədris ilinin sonunda isə muxtar respublikada ilk dəfə olaraq "STEAM təhsil festivalı" keçirildi. Hətta şagirdlərimiz 2021-2022-ci tədris ilində Bakı şəhərində keçirilən "SAF 2021" və "TEKNOFEST-2022" festivallarında iştirak edərək uğurlu nəticələr əldə ediblər. Təbiidir ki, bu yeniliklər sayəsində gələcəyin yenilikçi gəncliyi formalaşmış olur.

Son olaraq onu qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova şəxsən öz adımdan, çoxsaylı müəllim və şagirdlər adından gələcəyimiz olan gənclərə və müəllimlərə göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə minnətdarlığımızı bildiririk. İnanırıq ki, gəncliyimiz olan şagirdlər yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublikanın, ümumilikdə, ölkəmizin inkişafına öz töhfələrini verəcəklər. Bu sahədə hər kəsə uğurlar arzu edirəm!

**Ceyran MƏMMƏDOVA**
*Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodisti, STEAM təlimçisi*


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 695